## COP29 çərçivəsində "İqlimi yenidən düşünmək" mövzusunda tədbir keçirilib

Noyabrın 16-da COP29 iqlim sammiti çərçivəsində "İqlimi yenidən düşünmək" mövzusunda tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbir Ferrara Universitetinin tədqiqatçısı Asia Guerreschinin moderatorluğu ilə başlayıb.

Tədbirdə JULM Universitetinin doktorantı Barbara Monticelli, məzmun yaradıcısı elmi kommunikator Stefano Cisternino, Ətraf Mühit və Sağlamlıq Məlumatları analitikası, təsisçi Domenico Vito, menecer Andrea Crieco çıxış edərək bildiriblər ki, iqlim dəyişikliyinə qarşı mübarizədə elm və texnologiyanın əhəmiyyəti böyükdür. Qeyd olunub ki, gələcək nəsillərə daha yaşanıla bilən bir planet buraxmaq üçün dayanıqlı inkişaf və ətraf mühitin qorunması sahəsində innovativ yanaşmalar tətbiq edilməlidir.

Tədbirdə, həmçinin iqlim təhsili və məlumatın daha geniş yayılmasının vacibliyi vurğulanıb, gənclərin bu sahədə daha fəal iştirak etmələri tövsiyə olunub. Çıxış edənlər elmi kommunikasiya və məlumat mübadiləsinin əhəmiyyətinə diqqət çəkərək, iqlim dəyişikliyi ilə mübarizədə doğru və təsirli mesajların yayılmasının vacibliyini vurğulayıblar. İqlimlə əlaqəli məlumatların analitikası sahəsindəki yenilikləri təqdim edərək, bu məlumatların siyasət və qərar qəbul edənlər üçün necə yönləndirici ola biləcəyi izah edilib. Eyni zamanda, ətraf mühitin qorunmasında bütün sektorların birgə əməkdaşlığının vacibliyi ifadə edilərək, təbii resursların davamlı istifadəsi və təkrar emal proseslərinin genişləndirilməsinin əhəmiyyəti önə çəkilib.

Tədbir iştirakçıları yerli və qlobal səviyyədə iqlim dəyişikliyinin təsirlərinin azaldılması üçün birgə fəaliyyətin gücləndirilməsinin və gənclərin bu proseslərə cəlb edilməsinin vacibliyini də diqqətə çatdırıblar. Tədbirdə COP29-un əsas məqsədlərinə uyğun olaraq, iqlim dəyişikliyinə qarşı mübarizəni daha geniş və əhatəli bir yanaşma ilə həyata keçirmək üçün geniş müzakirələr aparılıb.

**AZƏRTAC**
**2024, 16 noyabr**